

■ Elmir Həsən

# AYDA AXTARIRAM SƏNİ

Sən yadıma düşən gecələr,
Aynadan sakit göylərə boylanıram,
Bax o, gecələrdə sənsizlikdən aya tapınıram,
Səni gecəmə aydınlıq yağdıran ayda axtarıram

Ürəyim üşüyər gecələr ayı görməsəm,
Mən səni ayın səssizliyində axtarıram,
....Gündüzlərdən utanar o da sənin kimi,
O da gecələr parlayar sənin kimi
Nə şirin möcüzədir bəxş edib bizlərə ilahi
Hara getsən də
Mənim dayandığım səma altındasan,
Gecələr səni tapşırdığım
ayın aydınlığındasan

Bizim aynadan çox şən görünür ay,
Sanki sevdiyinə bir baxışla qovuşub,
Sonrasa bütün keçənləri unudub

İstəmirəm açılsın səhər
günəş qısqanar bizi,
Axıtdığı şəfəqindən soyudar sevgimizi,
Odur ki, istəmirəm açılsın səhər
Nə var ki, səs küylü gündüzlərdə ?!
Nə var ki, dalğaların bir-birinə qarışdığı dənizlərdə?!

Kaspi 2020.- 25 iyul.-S.15.